## Məmməd İlqar

### Neynim?

Ha çaldım, könlümün bu təşnə vaxtı,
Sazım dinmədiki, dinmədi neynim?
Qarğamaq istədim taleyi, baxtı,
Dilim dönmədiki, dönmədi neynim?

Özüm öz odumda əridim itdim,
Karvan buludları bəri yeritdim,
Arazı axıtdım, Kürü yeritdim,
Odum sönmədiki, sönmədi neynim?

Aldı bir havalı xatirə məni,
Bələdi ənbərə-ətirə məni,
Dedim  bəlkə mənə yetirə məni,
Göydən enmədiki, enmədi neynim?

İlğımdı, dumandı, sisdi nədisə?
Sehirdi, sədadı, səsdi nədisə?
Axır bu zalımın qəsdi nədisə?
Aparır hələdə *Məmmədi* neynim?